Azərbaycan Dövlət Pedaqoji Universiteti *Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri* №1, 2026, **s. 43-50**
Азербайджанский Государственный Педагогический Университет *Актуальные проблемы музыкальной науки, культуры и образования* №1, 2026, **с. 43-50**
Azerbaijan State Pedagogical University *Actual problems of the science, culture and education of music* №1, 2026, **p. 43-50**

UOT 316.752(479.24)

N.R.Kərimli
Azərbaycan Dövlət Pedaqoji Universiteti
AZ 1000, Bakı ş., Üzeyir Hacıbəyli küçəsi, 68
e-mail: karimlinarmin2003@icloud.com

AZƏRBAYCAN CƏMİYYƏTİNDƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİN YERİ

https://doi.org/10.30546/170899876.101.01.2026.43

Açar sözləri: *Azərbaycan, milli-mənəvi dəyərlər, adət-ənənə, dini inanclar, mədəni irs, toy və yas mərasimləri, bayramlar, Novruz, dövlət siyasəti*

Azərbaycan xalqının milli-mənəvi dəyərləri əsrlər boyu formalaşaraq xalqın kimliyini, mədəniyyətini və həyat tərzini əks etdirən mühüm amillərdən biri olmuşdur. Adət-ənənələr, dini inanclar, ailə münasibətləri, qonaqpərvərlik və böyüyə hörmət kimi xüsusiyyətlər bu dəyərlərin əsasını təşkil edir. Toy və yas mərasimləri, eləcə də Novruz bayramı kimi bayramlar milli irsin qorunmasında mühüm rol oynayır. Ümummilli lider Heydər Əliyev milli dəyərlərin qorunmasına xüsusi diqqət yetirmiş, bu siyasət bu gün İlham Əliyev tərəfindən davam etdirilir. Ailə, məktəb və cəmiyyət gənc nəslə vətənpərvərlik ruhunu aşılayır. Bu dəyərlər xalqın birliyini gücləndirir və milli kimliyin gələcək nəsillərə ötürülməsinə xidmət edir, cəmiyyətin mənəvi inkişafında mühüm rol oynayır və Azərbaycanın zəngin mədəni irsinin dünyada tanıdılmasına da böyük töhfə verir. Bununla yanaşı, milli-mənəvi dəyərlərin qorunması xalqın tarixinin və mədəniyyətinin yaşadılması baxımından da xüsusi əhəmiyyət daşıyır.

Н.Р.Керимли

МЕСТО НАЦИОНАЛЬНЫХ И ДУХОВНЫХ ЦЕННОСТЕЙ В АЗЕРБАЙДЖАНСКОМ ОБЩЕСТВЕ

Ключевые слова: *Азербайджан, национальные и духовные ценности, обычаи и традиции, религиозные верования, культурное наследие, свадебные и траурные церемонии, праздники, Новруз, государственная политика*

Национальные и духовные ценности азербайджанского народа формировались на протяжении веков и стали одним из важных факторов, отражающих самобытность, культуру и образ жизни народа. Основой этих ценностей являются такие особенности, как обычаи и традиции, религиозные верования, семейные отношения, гостеприимство и уважение к старшим. Свадебные и траурные церемонии, а также такие праздники, как Новруз, играют важную роль в сохранении национального наследия. Национальный лидер Гейдар Алиев уделял особое внимание сохранению национальных ценностей, и эту политику продолжает Ильхам Алиев и сегодня. Семья, школа и общество прививают дух патриотизма молодому поколению. Эти ценности укрепляют единство народа и служат передаче национальной идентичности будущим поколениям, играют важную роль в духовном развитии общества, а также вносят большой вклад в популяризацию богатого культурного наследия Азербайджана в мире. В то же время, сохранение национальных и духовных ценностей имеет особое значение и с точки зрения сохранения истории и культуры народа.

N.R.Karimli

THE PLACE OF NATIONAL AND SPIRITUAL VALUES IN AZERBAIJANI SOCIETY

Keywords: *Azerbaijan, national and spiritual values, customs and traditions, religious beliefs, cultural heritage, wedding and mourning ceremonies, holidays, Novruz, state policy*

The national and spiritual values of the Azerbaijani people have been formed over centuries and have become one of the important factors reflecting the identity, culture and lifestyle of the people. Features such as customs and traditions, religious beliefs, family relations, hospitality and respect for elders form the basis of these values. Wedding and mourning ceremonies, as well as holidays such as Novruz, play an important role in preserving the national heritage. National leader Heydar Aliyev paid special attention to the preservation of national values, and this policy is continued by Ilham Aliyev today. Family, school and society instill the spirit of patriotism in the younger generation. These values strengthen the unity of the people and serve to transmit national identity to future generations, play an important role in the spiritual development of society and also make a great contribution to the promotion of Azerbaijan's rich cultural heritage in the world. At the same time, the preservation of national and spiritual values is also of particular importance in terms of preserving the history and culture of the people.

Dünya xalqları arasında milli mənəvi dəyərləri ilə tanınan Azərbaycan xalqı yaşatdığı və təbliğ etdiyi bəşəri ideyaları, adət-ənənələri, milli xüsusiyyətləri ilə özünəməxsus yer tutur. Uzun illər aparılan tədqiqatlar zamanı aydın olmuşdur ki, qədim köklərə malik Azərbaycan əsrlər boyu maddi və mənəvi xəzinəsini qoruyub saxlaya bilmişdir.

Xalqın toy-büsat mərasimi, bayram adət-ənənələri, Novruz mərasimləri, yas mərasimləri, islam dininin təmizlik, düzlük, insanlıq kimi bəşəri, ali hissləri tərbiyə edən milli mənəvi dəyərlərini özündə yaşadır. Bütün bunların kontekstində Azərbaycan vətəndaşının varlığı göstərilir. Uzun illərin yolu və əsrlərin, qərinələrin sorağı bizi bu ənənələrə bağlamış, dövrümüzə körpü salmışdır. Müasir insanın formalaşması və özünütəsdiqi məhz milli mənəvi dəyərlərin aşılanması prosesi ilə bağlıdır. Azərbaycanın qədim, rəngarəng mənəvi dəyərləri, mədəni irsi hazırda xalqın fəxr mənbəyi və dünya mədəniyyətinə töhfəsi qismində çıxış edir. Bu sahəyə dövlət qayğısının gündən-günə artırılması və beynəlxalq təcrübənin tətbiqi istiqamətində görülən işlər qeyri-maddi mədəni irsin gələcəyinə nikbin baxmağa ümidləri artırır.

"Azərbaycan musiqi mədəniyyətinin milli xarakteri, musiqinin məğzi və onun tərbiyəvi əhəmiyyəti konsepsiyasında öz əksini tapır." [3,s 16]

Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirməsində, daim diqqət mərkəzində saxlamasında idi. Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev milli mənəvi dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə

Heydər Əliyev milli mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bildirirdi ki, bunlarsız millət yoxdur. Bunları qoruyub-saxlamış xalq isə daim müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. "...Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" - deyən Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın - dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi

Ulu öndər Heydər Əliyev bütün həyatı boyu mənəvi-əxlaqi və dini dəyərlərimizin, adət-ənənələrimizin keşiyində durdu. Tariximizin qədimliyi və zənginliyinin mühüm göstəricisi olan tarixi abidə və eksponatların qorunub-saxlanılması və gələcək nəsillərə ötürülməsi məqsədilə Azərbaycanın bütün bölgələrində tarix-diyarşünaslıq muzeylərinin yaradılması haqqında Sərəncam imzaladı. Azərbaycan folklorunun daha dərindən araşdırılması, aşıq sənətinin

inkişafı, milli mərasimlərimizin təbliği istiqamətində ciddi tədbirlər həyata keçirildi

Heydər Əliyev dövlət quruculuğu prosesi ilə paralel surətdə mədənimənəvi quruculuq və milli-tarixi yaddaşın bərpası işlərini də həyata keçirirdi. Vaxtilə qadağalara məruz qalan, yasaq olunan milli və dini bayramlar, adət və mərasimlər xalqa qaytarıldı. Heydər Əliyev hər il qədim milli bayramımız olan Novruzda əhali ilə bayramlaşmağa çıxır, azad və müstəqil xalqımızın Novruz sevinclərindən xüsusi zövq alırdı.

"Novruz bayramı Azərbaycan xalqının qədim mədəniyyətini və milli ənənələrini özündə əks etdirən mühüm mənəvi dəyərlərdən biridir." [7,s 118]

Heydər Əliyev bu tədbirləri təkcə Azərbaycan yox, bütün türk dünyası miqyasında həyata keçirirdi. Ortaq türk mədəniyyəti və mənəviyyatının öyrənilib təbliğ edilməsi, keçmişdən gələcəyə ötürülməsi yönündə müstəsna xidmətlər göstərirdi. Qırğızların "Manas" eposunun 1000 illik yubileyində iştirak və çıxış edən Ulu öndər Heydər Əliyev bütün türk dünyası üçün əvəzedilməz müdrik bir şəxsiyyət olduğunu bir daha sübut etdi.

Ulu öndər Heydər Əliyev islam dini ilə bağlı olan mərasim və adətlərin də layiqincə keçirilməsi üçün hər cür şərait yaratmışdı. 1994-cü ildə Səudiyyə Ərəbistanına rəsmi səfəri çərçivəsində müqəddəs Kəbəni ziyarət etməsi, Mirmövsüm Ağa ziyarətgahında din xadimləri və möminlərlə görüşməsi, Bibiheybət məscid-kompleksinin yenidən qurulmasına xeyir-dua verməsi Ulu öndər Heydər Əliyevin dini-əxlaqi dəyərlərə sadiqliyinin real təsdiqi idi.

Qloballaşan dünyada mənəvi dəyərlərin böyük təhlükələrlə üzləşdiyi məqamlarda Heydər Əliyev qətiyyətli bir lider kimi mövqeyini ortaya qoyurdu. Ulu öndərin milli mənəvi dəyərlərin qorunması ilə bağlı 2001-ci il avqustun 13-də verdiyi "Milli mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir" bəyanatı problemə təkcə dövlət rəhbərinin yox, həm də müdrik bir el ağsaqqalının münasibəti idi. "Biz öz milli mənəvi dəyərlərimizlə, adət-ənənələrimizlə fəxr edirik" deyən Ümummilli Liderin işıqlı ideyaları bu gün də yaşayır və həyata keçirilir.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Bu gün Prezident İlham Əliyevi eyni zamanda Azərbaycanın milli mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük.

Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan və milli mənəvi dəyərlərə dayanan islahatların başlıca məqsədi müasir dünya çağırışlarına cavab verən güclü, rəqabətədavamlı və vətəndaşın daha yaxşı yaşadığı dövlətin qurulmasıdır. Bu vəzifələri yerinə yetirmək üçün xalqımızın özünün milli mənəvi

dəyərlərinə, tarixinə sahib çıxması vacibdir. Prezident İlham Əliyevin konsepsiyasına görə, milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti məhz milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli mənəvi dəyərlərin qorunmasına xidmət edir. Dövlətçilik hisslərinə malik olmadan xalq milli dövlətini inkişaf etdirə bilməz. Bu gün Ulu öndərin ali ideyalarının gerçəkləşməsində Prezident İlham Əliyevlə birgə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKOnun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva da yaxından iştirak edir .

Milli mənəvi dəyərlər hər bir Azərbaycan vətəndaşı üçün doğma, əziz və müqəddəsdir. Bu həm də milli ruhun, milli şüurun simvolu olaraq tarixi yaddaşın fundamental prinsiplər əsasında formalaşması deməkdir. Xalqımız, millətimiz keçmişin bütün buxovlarından azad olduqdan sonra əlindən zorla alınmış milli mənəvi dəyərlərinin, milli özünüdərkin formalaşmasına yeni zəmin yarantı.

Müasir tariximizin səhifələrində yer almış milli oyanış dövründə millətin həmin dəyərlər uğrunda canından belə keçməyə hazır olması xalqımızın milli dəyərlərə sadiqliyinin nümunəsidir. 1969-cu il iyulun 14-də Azərbaycanda siyasi hakimiyyətə gələn Ümummilli lider Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi baryerlərə sinə gərərək Azərbaycan xalqının milli özünüdərki üçün bütün zəruri tədbirləri həyata keçirməyə başlamış, ictimai şüurdakı qorxunu, ehtiyatlılığı aradan qaldırmağı, cəmiyyəti bütün sahələr üzrə gələcək mənəvi yüksəlişlərə ruhlandırmağı bacarmışdır.

Ulu öndər Heydər Əliyev xalqda milli heysiyyəti gücləndirmək, onu öz şanlı keçmişinə, soykökünə qaytarmaq, habelə zəngin bədii irsini, mədəniyyətini, incəsənətini, adət-ənənələrini yaşatmaq, ana dilini inkişaf etdirmək üçün bir sıra tədbirlər həyata keçirmişdir. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi gənc müstəqil dövlətimizin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, Azərbaycan xalqının milli mənəvi irsini ehtiva edən ideyanın – Azərbaycançılığın təşəkkülü və inkişafına mühüm təsir göstərmişdir. Milli-mənəvi dəyərlər hər bir xalqın mədəni kimliyini və tarixi yaddaşını formalaşdıran əsas amillərdən hesab olunur.

Milli-mənəvi dəyərləri qoruyub saxlamaq, onları gələcək nəsillərə çatdırmaq xalqın öz keçmişinə bağlı olduğunu, kimliyini unutmadığını göstərir. Bizim dilimiz, dini inancımız, adət-ənənələrimiz, eləcə də bu torpaqlarda əsrlər boyu formalaşmış birgəyaşayış mühiti və tolerantlıq kimi xüsusiyyətlərimiz bizim milli-mənəvi sərvətlərimizdir. Bu dəyərlərə sahib çıxmaq, onları yaşatmaq, yaymaq və uşaqlara, gənclərə sevdirmək doğma Vətənimizin və xalqımızın sabahı üçün çox vacibdir və böyük əhəmiyyət daşıyır. Azərbaycan xalqı yüz illərdir ki, məhz bu dəyərlərə arxalanaraq tarixin ağır günlərindən, çətin sınaqlarından üzü ağ çıxmağı bacarıb, öz milli kimliyini və dövlətçilik ənənələrini qoruyub saxlamağa nail olub.

Hər bir millətin milli-mənəvi sərvətləri, zəngin mədəni irsi, özünəməxsus adət və ənənələri onun tarixi köklərinin qədimliyinin əsas göstəricilərindəndir. Əsrlər boyu qorunaraq nəsildən-nəslə ötürülən bu dəyərləri mühafizə etmək, yaşatmaq və daha da inkişaf etdirmək hər bir insanın öz xalqı qarşısında mənəvi məsuliyyəti və müqəddəs borcudur. Sevindirici haldır ki, Azərbaycan xalqı öz milli-mənəvi irsinə və qədim adətlərinə daim bağlı qalmışdır. Xalqımızın keçdiyi tarixi inkişaf yolu, minilliklər ərzində formalaşmış zəngin ənənələrimiz bu gün də yaşadılır və davam etdirilir.

Azərbaycanlılar əsrlərdir ki, öz qədim milli-mənəvi dəyərləri ilə tanınırlar. Xalqımız həmişə adət-ənənələrinə diqqətlə yanaşıb, onları qoruyub, yaşadıb və başqalarına da göstərib. Bu xüsusiyyətlərimizlə dünya mədəniyyətində öz yerimizi tutmuşuq. Uzun illər aparılan araşdırmalar göstərir ki, bu gün də yaşatdığımız bir çox adətlərin kökü çox qədim zamanlara gedib çıxır. Tarix boyu Azərbaycana gələn adamlar bura heyran qalıblar. Onları valeh edən təkcə ölkəmizin gözəl təbiəti və zəngin sərvətləri olmayıb. Eyni zamanda, burada yaşayan insanların özünəməxsus adət-ənənələri və milli dəyərlərə böyük hörmətlə yanaşmaları da onların diqqətini çəkib. Min illər əvvəl yaranan milli dəyərlərimiz bu günə qədər demək olar ki, dəyişməyib, yaddan çıxmayıb. Azərbaycan xalqı indi də həmin dəyərlərə söykənərək yaşayır.

Azərbaycan həmişə milli və insani dəyərlərə hörmət edən bir ölkə olub. Bu torpaqda əsrlərdir multikulturalizm və tolerantlıq ənənələri yaşayıb və inkişaf edib. Son illərdə də ölkəmizdə milli-mənəvi dəyərlərin təbliği və qorunması üçün xeyli işlər görülür. Azərbaycanda milli irsə, dini inanclara hörmət var, müxtəlif mədəniyyətlər arasında dialoq və qarşılıqlı anlayış yüksək səviyyədədir.

Milli-mənəvi baxımdan zəngin olan Azərbaycanda müxtəlif dillər, dinlər və mədəniyyətlər azad şəkildə inkişaf edir. Ölkədə sülh, dostluq və qardaşlıq mühiti hökm sürür. Dövlətlə din arasında münasibətlər sağlamdır, dini və etnik dözümlülük qorunur. Məscidlər, ziyarətgahlar, sinaqoqlar, kilsələr tikilir və təmir olunaraq insanların istifadəsinə verilir. Dövlət başçısı İlham Əliyev dəfələrlə bildirib ki, dinlər və məzhəblər arasında dostluq və hörmətin alternativi yoxdur. O vurğulayıb ki, Azərbaycan dünyada tolerantlıq nümunəsi kimi tanınır, sivilizasiyalar arasında dialoqa və beynəlxalq sülhə töhfə verir. Son illərdə ölkəmizdə beynəlxalq humanitar forumlar, dünya dini liderlərinin görüşləri keçirilib. Bu da Azərbaycanın bu sahədəki rolunu göstərir.

Milli birliyimizi qoruyan və mənəvi dünyamızı zənginləşdirən dəyərlər sayəsində bu günə gəlib çıxmışıq. Hər bir insanın formalaşmasında ailənin rolu böyükdür. Ailəyə boş yerə "kiçik dövlət" demirlər. Əsas dəyərlər məhz ailədə öyrədilir. Ədalət, mərhəmət, vətən sevgisi, dürüstlük, halallıq, böyüklərə hörmət, zəhmətkeşlik kimi keyfiyyətlər ailədə aşılanır. Sonra məktəb və cəmiyyət bu tərbiyəni daha da möhkəmləndirir.

Belə mühitdə böyüyən gənclər həm savadlı olur, həm də vətəndaşlıq ruhunda formalaşır. Vaxt gəlir, Vətən də onlarla fəxr edir. 2020-ci ilin 27 sentyabrında Ermənistanın təxribatı nəticəsində müharibə başladı. Prezident, Ali Baş Komandan İlham Əliyev qismən səfərbərlik elan etdi. Minlərlə gənc könüllü olaraq cəbhəyə getmək istədiyini bildirdi.

44 gün davam edən Vətən müharibəsi Azərbaycanın tarixi qələbəsi ilə başa çatdı. Ordumuz həm düşmənə, həm də dünyaya gücünü və qəhrəmanlığını göstərdi. İşğal altında olan torpaqlar bir-bir azad edildi. Azərbaycan əsgərləri cəsarət, mərdlik və vətənpərvərlik nümunəsi göstərdilər.Bu müharibə bir daha sübut etdi ki, Azərbaycan xalqının gələcəyi parlaqdır. Gənclərimiz möhkəm iradəlidir, çətinlikdən qorxmur, doğru bildikləri yoldan dönmürlər. Azərbaycanda tarixən mövcud olan tolerantlıq mühiti və fərqli mədəniyyətlərə hörmət də qələbəmizdə mühüm rol oynadı. Ölkədə yaşayan bütün xalqlar və etnik qruplar bir amal uğrunda birləşdi. Hamı bir nəfər kimi Azərbaycanın ərazi bütövlüyü naminə ayağa qalxdı və göstərdi ki, bu birlik və həmrəylik davamlı olacaq.

Bütün bunların fonunda, heç şübhəsiz, ölkəmizdə milli mənəvi dəyərlərin qorunması və geniş təbliğ edilməsində mətbuatın da xüsusi rolu vardır. Azərbaycan xalqının milli mənlik şüurunun oyanışında, zəngin tariximədəni irs, adət-ənənələr üzərində yeni tipli mədəniyyətin yaradılmasında, türklük düşüncəsi, islam dəyərləri, müasir demokratik prinsiplər əsasında

Bu gün mətbuatda və sosial mediada milli adət-ənənələrimizi, milli ideologiyamızı, tariximizi, ana dilimizi, ölkəmizdə mövcud olan ənənəvi dinimizi qorumağın, o cümlədən sosial şəbəkələr vasitəsilə gənc nəslə təbliğ etməyin yolları müzakirə edilir, milli adət-ənənələrimizlə mədəni inkişafımızın vəhdəti araşdırılır və geniş ictimaiyyətə çatdırılır. Mətbuatda aparılan işlərin əsas hədəfi isə gənc nəslin milli mənəvi dəyərlərə sahib çıxmasını, onu qorumasını və vətənpərvərlik hisslərini gücləndirməsini təmin etməkdir.

Mövzunun aktuallığı: Müasir dövrdə qloballaşma şəraitində milli-mənəvi dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi böyük əhəmiyyət daşıyır. Bu siyasətin əsası Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün İlham Əliyev tərəfindən davam etdirilir.

Nəticə: Milli-mənəvi dəyərlər Azərbaycan xalqının kimliyini və tarixi yaddaşını qoruyan əsas amillərdəndir. Onların qorunması və təbliği cəmiyyətin inkişafına və gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasına xidmət edir.

ƏDƏBİYYAT

1. Ağayev Ə.Ə. “Pedaqoji fikrimiz: dünənimiz, bu günümüz”. Bakı: 2000.
2. Qədimova J. Musiqi fənninin tədrisi metodikası. Bakı, ADPU, 2021 - 323 s.

3. Qədimova, J. Etnomusiqişünaslıq aspektlərinin bütövlüyü xalq musiqisinin tədrisində yeni proqramların formalaşmasının əsasi kimi /"Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri". Bakı, ADPU, 2017, № 1, s. 10-24

3. İsmayılbəyli, S. Milli-mənəvi dəyərlər və müasirlik. – 2015. - 10 s.

4. Bayramova, Z. Milli-mənəvi dəyərlərimizə töhfə. – 2023. - 4 s.

5. Sehranə Kasimi. Azərbaycan musiqi mədəniyyəti Şərq və Qərb kontekstində. Bakı – "Təknur" 2015. - 80 s.

6. Hüseynov, M. Tarixi irs və milli identiklik məsələləri. - 2020.

7. Qasımov, M. Azərbaycan mədəniyyəti tarixi. Bakı: Təhsil, 2013, 368 s.

8. Milli-mənəvi dəyərlərin təbliğində kitabxanaların rolu. (2011). Bakı, 85 s.

9. Hüseynov, İ. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti (monoqrafiya). Bakı, Mars-Print. 2002, 305 s.

Məqalənin redaksiyaya daxil olma tarixi: 28.04.2026
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 01.05.2026
Məqalənin çapa qəbul olunma tarixi: 14.05.2026
Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:
pedaqogika üzrə fəlsəfə doktoru Məlahət Məmmədova
ADPU-nun Elmi Şurasının 15 aprel 2016-cı il tarixli 15 saylı qərarı ilə çap olunur.